

**Fətəliyeva Yeganə Nail qızı**
**dissertant**

İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu

AZ1011, Bakı ş., H.Zərdabi pros., 88a.

yeganafatali@gmail.com

UOT 336.77:339.564 (479.24)

# İXRAC KREDİT AGENTLİKLƏRİNİN ZƏRURİLİYİ

səh. 105-112

## Xülasə

*Tədqiqatın məqsədi* – müasir dövrdə ixracın stimullaşdırılmasında "İxrac Kredit Agentlik"-lərinin (İKA) əhəmiyyətliliyinin və onların Azərbaycan Respublikasında fəaliyyətləndirilməsinin genişləndirilməsi zəruriliyinin əsaslandırılması.

*Tədqiqatın metodologiyası* – sistemli yanaşma, müqayisəli təhlil.

*Tədqiqatın nəticələri* – Azərbaycanda İKA-ların zəruriyyəti əsaslandırılması, onların müsbət cəhətlərinin xüsusiyyətlərini əks etdirən istiqamətlərin müəyyənləşdirilməsi və bu sferada müvafiq təkliflərin verilməsi.

*Tədqiqatın məhdudiyyətləri* – tədqiqat prosesində müvafiq məlumatların və statistik-riyazi üsullarla iqtisadi göstəricilərin əldə olunmasında çətinliklərə rast gəlinmişdir.

*Tədqiqatın praktiki əhəmiyyəti* – İKA-ların tətbiqi proseslərində dünya təcrübəsindən daha səmərəli yaralanmaq və bu sahədə elmi mənbə kimi istifadə etməkdir.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – yeni qlobal çağrışlar baxımından milli iqtisadiyyata, xüsusən də, qeyri-neft sektorunda ixracın stimullaşdırılmasında İKA-larının fəaliyyətləndirilməsinin genişləndirilməsi zəruriliyinin əsaslandırılması.

**Açar sözlər:** *İxrac Kredit Agentliyi, qeyri-neft sektoru.*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

İxracın maliyyə dəstəyinin təmin edilməsində əsas rolu İKA oynayır. İKA - bankın ixrac kreditləri üzrə qaytarılmama riskləri mövcud olduğu halda, həmin kreditlərin sığortalanması ilə məşğul olan qurumdur. İKA-nın köməkliyi ilə idxalçı bankdan aşağı faiz dərəcəsi ilə kredit alır, ixracatçı isə milli məhsulların xaricə göndərilməsi imkanını əldə edir.

Dünyada təxminən 100 İKA-lar var. Onların fəaliyyəti beynəlxalq ticarəti və iqtisadi inkişafı üçün çox böyük təsir göstərmişdir. İKA-ların əsas xidməti ondan ibarətdir ki, birinci onların maliyyə resursları ixracatçıların və bankların risklərini, kreditlənmiş ixrac malların sığortalanmasını təmin edir, digər tərəfdən idxalçılara inkişaf olunmuş ölkələrdən uzun müddətli maliyyələşmənin yararlanmasını imkanlar yaradır və nəticədə ölkələrə idxal olunmuş avadanlıqların və malların, iqtisadiyyatını, istehsal sektorunun, əhalinin gəlir və həyat tərzinin artımına gətirib çıxardır. İxrac kreditlərin sığortası üzrə ilk dövlət proqramı 1919-cu ildə Böyük Britaniyada təqdim olunub. Onların əsas vəzifəsi milli ixracın bərpası və işsizliyin azalması dünya müharibəsindən sonra olub. Bu proqramlar çox səmərəli idi. Tezliklə analoji qurumlar və sığorta ixrac zəmanət verilməsi üzrə digər avropa ölkələrində və Amerika Birləşmiş Ştatlarda yaradılmışdır.

İKA-larının yaradılmasının əsas məqsədi ölkədə istehsal edilmiş milli məhsulların və xidmətlərin xaricə ixracının stimullaşdırılması prosesinin inkişafıdır. İxracın stimullaşdırılmasında bir alət kimi çıxış edir. Dünyada ilk bu cür agentliklərin yaranma tarixi haqqında məqalədə qeyd olunmuşdur. Hazırda qeyri-neft sektorunda ixrac oluna biləcək mal və xidmətlərin inkişafına təsir göstərmək üçün Azərbaycan Respublikasında İKA-nın yaradılmasının zərurəti vardır. Müasir dövrdə ixracın stimullaşdırılmasında İKA-larının əhəmiyyətliliyinin və onların Azərbaycan Respublikasında fəaliyyətləndirilməsinin genişləndirilməsi zəruriliyinin tədqiqatın aparılmalıdır. Tədqiqat işinin strukturunda əsas vəzifələr sırasında İKA sahəsində bir qrup dünya ölkələrin təcrübəsini yararlanması, İKA-nın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən hər il dərc etdiyi ixrac kreditlərin dəstəklənməsi üzrə rəsmi razılaşmanın qayda və qanunları riayət edərək Azərbaycanda iqtisadi normativ aktlarda və təlimatlarda əks etdirməsi və nəhayət tədqiqat materialları əsasında müvafiq təkiflərin verilməsi yer almışdır.

## 2. İxrac Kredit Agentliklərinin tarixi və iqtisadiyyatda mühüm rolu

Dünya təcrübəsinə baxdıqda görmək olar ki, İKA-ların yaradılması və onların fəaliyyəti beynəlxalq ticarətə və iqtisadi inkişafa çox böyük təsir göstərmişdir. İKA-ların əsas xidməti bir tərəfdən ixracatçıların və bankların risklərini, kreditlənmiş

ixrac mallarının sığortalanmasını təmin etməkdən, digər tərəfdən isə idxalçılara inkişaf etmiş ölkələrin uzun müddətli maliyyələşməsindən yararlanma imkanları yaradaraq ölkələrə idxal olunmuş avadanlıq və malların sayəsində iqtisadiyyatın istehsal sektorunun inkişafının, əhalinin gəlir və həyat şəraitinin artımının sürətləndirməkdən ibarətdir.

Tarixə baxsaq, görərik ki, dünyada ilk yaradılan İKA-lardan biri "Export Credits Guarantee Department" - ECGD (İxrac Kreditinin Qarantiyası Departamenti) olmuşdur. Hazırda bu agentlik "UK Export Finance" - UKEF (BB İxrac Maliyyə) adına dəyişdirilmişdir. I dünya müharibəsindən sonra Böyük Britaniya həm iqtisadiyyatda həm də sənayedə itki vermişdir. Müharibədən əvvəl nəhəng və güclü gəmiqayırma sənayesi mövcud idi, lakin müharibə dövründə Almaniya bu sənayeyə böyük zərbə vurmuşdu. Nəticədə isə bu müddətdə ABŞ bu sənayeni inkişaf etdirib liderliyi əldə etmişdir. Əlavə olaraq, tekstil sahəsində də liderliyini itirmiş olan Böyük Britaniya Yaponiyadan geridə qalırdı. Nəticədə ölkədə iqtisadi depressiya yaranmış, işsizlik yüksək templə artmağa başlamışdır. Ölkədə ağır vəziyyəti nəzərə alaraq, hökumət əhaliyə qarşı bir sıra güzəştləri həyata keçirmişdir. İlk olaraq mənzil-tikinti üzrə dövlət subsidiyaları artırılmış, işsizlik üzrə yardım və təqaüd qaldırılmış, ölkədə istehsalı yenidən oyatmaq üçün aksiz vergisini aşağı salma qərarı qəbul edilmişdir. Bu dövrdə Böyük Britaniyada ixracın çox aşağı səviyyədə olması hökuməti ixracın necə inkişaf etdirilməsi haqqında yeni fikir və qərarlar qəbul etməyə sövq etmişdir. Beləliklə, 1919-cu ildə yuxarıda qeyd olunan agentlik yaradılmışdır. Dünya müharibəsindən sonra hökumət tərəfindən ölkədə işsizliyin aradan qaldırılması üçün yeni sənaye növlərinin (avtomobilqayırma, aviasiya və kimya) açılması haqqında qərar qəbul olunmuşdur. Bu məsələ idxal-ixrac əməliyyatlarının inkişaf etməsinə təsir göstərirdi.

Dünyada ən böyük agentliklərdən biri "The Export-Import Bank of the United States" - EXIM (*ABŞ-ın İdxal-İxrac Bankı*) sayılır. Bu bank rəsmi olaraq dövlət müəssisəsi hesab olunur. 1934-cü ildə ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Vaşinqton İdxal-İxrac Bankı adı altında yaradılmışdır. 1968-ci ildə "The Export-Import Bank of the United States" adına dəyişdirilmişdir. Bu agentliyin yaradılmasında əsas məqsəd ABŞ məhsullarının istehsalının və satışının stimullaşdırılması, həmçinin xarici ölkələrin bu məhsulların idxalı üçün vəsaitin olmadığı tədqirdə kredit vasitəsi ilə əldə edilməsi idi. İlk dövrdə ABŞ-ın İdxal-İxrac Bankı birbaşa maliyyələşmə həyata keçirirdi. Birinci kredit əməliyyatı 1935-ci ildə gümüş külçələrin idxalı üçün Kubaya 3,8 milyon ABŞ dolları məbləğində kreditin verilməsi olmuşdur. İkinci dünya müharibəsindən əvvəl ölkədə vəziyyət ağır idi, işsizliyin səviyyəsi artır və küçələrdə mitinqlər keçirilirdi. Müharibə ərzində kişilərin könüllü şəkildə döyüşə getməsi və onların əvəzində qadınların və yeniyetmə uşaqların istehsal sahələrində işləməyə məcbur qalması ABŞ-ın iqtisadiyyatında canlanmaya səbəb olmuşdu. Beləliklə, ölkədə işsizliyin azalması prosesi müşahidə olunurdu. O dövrdə, ölkədə hərbi

sənaye sürətlə inkişaf edirdi və ABŞ-ın İdxal-İxrac Bankı bu sənayeni dəstəkləyirdi. Məsələn, rezin məhsulların istehsalı üçün Latın Amerikasından xammalın idxalı üçün maliyyələşmə həyata keçirilirdi.

Beləliklə aparılmış təhlil göstərir ki, İKA-lar öz inkişafında davamlı tarixi yol keçmiş və ayrı-ayrı ölkələrin iqtisadiyyatda mühüm rol oynamış və hal-hazırda da bu təsisatların əhəmiyyəti artmaqdadır.

## 3. Azərbaycan Respublikasında ixracın stimullaşdırılmasında İxrac Kredit Agentliklərinin zəruriliyi

2016-cı il 18 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədi ilə müvafiq sərəncam imzalamışdır. Bu sərəncamın imzalanmasında əsas məqsəd Azərbaycanda qeyri-neft sektoru üzrə ixrac imkanlarının genişləndirilməsi ilə bu sektorda inkişaf tempinin artırılmasıdır.

Cənab prezident İlham Əliyev 2016-cı ildə qeyri-neft sektorunun inkişafının prioritet olacağını, neftdən asılılığın minimuma endirilməsi ilə bağlı tədbirlərin görüləcəyini bildirmişdir. Prezident Azərbaycan Respublikası Dövlət Neft Fondunun – ARDNF vəsaitlərinin qorunması, həmin Fonddan dövlət büdcəsinə transferlərin azaldılması, vergi bazasının genişləndirilməsi, gömrüyün rəsmiləşdirilməsi və ixrac-idxal əməliyyatlarının şəffaflığının təmin olunması, maliyyə nəzarətinin gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar vermişdir. Həmçinin cənab İlham Əliyev bu kimi məsələlərə ictimai nəzarət mexanizmlərinin işə salınmasının əhəmiyyətinə toxunmuşdur. Dövlət başçısı biznes mühitinin yaxşılaşdırılması, nağdsız ödəmələrin artırılması, fiskal təşviq mexanizmlərinin genişləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsinin davam etdirilməsi, bank sektorunda islahatların aparılması, özəl bankların ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsi ilə bağlı fikirlərini bildirmişdir [2].

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2017-ci ildə 2 saylı İxrac İcmalına əsasən 2016-cı il ərzində 377 şirkət tərəfindən 143 milyon ABŞ dolları məbləğində qeyri-neft sektoruna aid mal ixrac olunub. İxrac olunan əsas mallar qızıl, təzə və qablaşdırılmış tomat, kimya sənayesi məhsulları, elektrik enerjisi, fındıq, pambıq lifi, şəkər, alüminium, meyvə və s. olmuşdur. Ötən müddət ərzində isə qeyri-neft sektoru üzrə ixrac 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 22% artmışdır. Bu ixrac əməliyyatlarında 846 şirkət iştirak etmişdir. Qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk 5-likdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistan vardır. Ölkələr üzrə məlumatların təhlilindən aydın olmuşdur ki, qeyri-neft sektoru üzrə ixracda ilk yeri xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen tutur (*34,1 milyon ABŞ dolları həcmində ixrac olunub*). İkinci yerdə isə

AZƏRBAYCANIN
VERGİ JURNALI

təzə və qablaşdırılmış tomat qərarlaşıb (*33,8 milyon ABŞ dolları həcmində ixrac olunub*). İxrac həcmi 28 milyon ABŞ dolları olan qabığı təmizlənmiş fındıq isə 3-cü yerə sahib olub. 2017-ci ilin 4 ayı ərzində Azexport.az portalında ən çox ixrac sifarişi alan məhsullardan biri nar şirəsi olmuşdur. Belə ki, 4 ay ərzində Fransa, Almaniya, Səudiyyə Ərəbistanı, Türkiyə, Ukrayna, Misir, Polşa, Danimarka, Hindistan və digər ölkələrdə nar şirəsinə tələbat yaranmışdır. Qeyd edək ki, xarici sifarişçilər nar şirəsi ilə yanaşı nar şərabına da böyük maraq göstərirlər. Beləliklə, Azərbaycandan ixrac olunan neft və neft məhsullarının azalması, qeyri-neft məhsullarının isə ildən-ilə artıma doğru getməsi müşahidə olunur [1].

Azərbaycanda qeyri-neft sektoru üçün ixrac imkanlarının genişləndirilməsi və bu işin inkişaf etdirilməsi üçün hökumət tərəfindən bütün tədbirlərin görülməsinə başlanılması zəruridir. Təcrübə göstərir ki, hər bir ölkədə ixracın hökumət tərəfindən dəstəklənməsi üzrə maliyyə mexanizmi fəaliyyət göstərir ki, bu da ixracın stimullaşdırılması üzrə milli sistemin qurulması üçün çox vacibdir. İxracın maliyyə dəstəyi - yerli şirkətlərin dünya bazarında yüksək rəqabət qabiliyyətliliyinin təmin edilməsi üzrə hökumətin apardığı siyasətin mühüm istiqamətlərindən biridir və bu, şirkətlərə rəqabət mübarizəsində müvəffəqiyyət qazanmağa və faydalı sifarişlərin əldə olunmasına imkan yaradır.

Azərbaycan Respublikasında İKA-nın yaradılması üçün regionda artıq fəaliyyət göstərən Rusiya Federasiyasında İKA-nın təcrübəsindən yararlanmaq mümkündür. АО “Российское агентство по страхованию экспортных кредитов и инвестиций” - ЭКСАР (*İxrac kreditin və investisiyanın sığortalanması üzrə Rusiya Agentliyi*) 2011-ci ildə “Банк развития и внешэкономической деятельности” - Внешэкономбанк (*Vneşekonombank*) bankının 100% törəmə dövlət korporasiyası kimi yaradılmışdır. Vneşekonombank Rusiya Federasiyasının 100% sahibi sayılır. Kommersiya bankı yox, 100% dövlət bankı hesab olunur. “ЭКСАР” Rusiyanın dövlət institutu hesab olunmuşdur. İKA üzrə beynəlxalq təcrübədən əldə olunan bu agentlik Rusiyada ilk dövlət ixrac kredit agentliyidir. 2010-cu ildə Vneşekonombankın əldə etdiyi gəlirliyindən 30 mlrd rus rubli “ЭКСАР” agentliyinin yaradılması məqsədilə sərmayə qoyulmuşdur.

2014-cü ildə Rusiya Federasiyasının Prezidenti tərəfindən “ЭКСАР” agentliyinin 100% səhmi АО РОСЭКСИМБАНК (*Roseksimbank*) banka keçirilməsi qərara alınmışdır. Roseximbank öz növbəsində dövlət ixtisaslaşmış ixrac-idxal bankıdır, maşınqayırma sənayesi üzrə ixrac stimullaşdırma və maliyyə dəstəyi göstərir. Bununla “ЭКСАР” agentliyi xammal olmayan ixrac maliyyə dəstəyi göstərən kredit sığorta agentliyi kimi tam formalaşmışdır.

Beləliklə aparılmış təhlildən sonra müəyyən olunub ki, dövlət bankın dəstəyi əsasında törəmə korporasiyası kimi İKA-nı yaratmaq mümkündür və belə təsisatların Azərbaycan Respublikasında da ixracın stimullaşdırılmasında əhəmiyyəti yüksək olacaqdır.

## 4. Nəticə

Hazırda Azərbaycan bankları tərəfindən xarici tərəfdaşlara kreditin verilməsi yüksək risklərə birbaşa bağlı olduğundan, bu əməliyyatlar Azərbaycanda həyata keçirilmir. Beləliklə, verilən kreditlərin əksəriyyəti bank tərəfindən deyil dövlət tərəfindən verilir və bu yeni bank məhsulunun əmələ gəlməsinin qarşısını alır. İKA-nın fəaliyyət göstərdiyi ölkələrdə bank tərəfindən verilən hər hansı bir kreditin 75%-dən 95%-dək sığortalanması nəticəsində bank yüksək risklərlə üzləşmir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il aprelin 17-də Yevlaxda Qeyri-neft İxracatçılarının Respublika Müşavirəsindəki çıxışında qeyd etdiyi kimi, “İndi əsas vəzifəmiz ondan ibarətdir ki, biz xaricdən sifariş olunan malların istehsalını təmin edə bilək. İndi bəzi hallarda sifariş olunur, ancaq ixraca göndəriləcək kifayət qədər məhsulumuz hələ ki, olmur”. Bu çıxışı nəzərə alaraq, hazırda ölkədə ixrac üçün istehsal olunan məhsulların daha da keyfiyyətli olması və artım tempinin qaldırılması üçün Azərbaycanda bank sisteminin inkişafını təmin etmək və yeni məhsulun əmələ gəlməsinə imkan yaratmaq məqsədi ilə İKA-ların ölkədə fəaliyyətini başlamaq zəruridir. Qeyri-neft məhsullarının ixrac səviyyəsinin inkişaf etdirilməsi və genişləndirilməsi üçün xarici ölkələrin (*Belarus, Ukrayna, Özbəkistan və s.*) milli məhsullara olan tələbatlarının artırılmasını stimullaşdırmaq lazımdır.

Beləliklə, aparılmış tədqiqat işlərin nəticəsindən sonra Azərbaycanda İKA-ların zəruriyyəti əsaslandırılmasına, bu agentliyin yaradılması üstünlük cəhətləri və bu sahənin effektivli bir iqtisadi mexanizm kimi milli iqtisadiyyatın inkişafına verə biləcək bir sıra təkliflərin sadalanmasına və nəticələri ümumiləşdirilməsinə imkan verir:

- ❑ respublikada istehsal olunan və ixraca buraxılan mal və xidmətlərin səviyyəsinin inkişaf etdirilməsinə və genişləndirilməsinə təsiri var və nəticədə milli məhsulların istehsal tempinin qalxması prosesi müşahidə oluna bilər;
- ❑ ixrac tələbatın səviyyəsi qalxaraq paralel olaraq istehsal sahələrdə iş qüvvəsinin tələbatın yüksəlməsinə şərait yaradır;
- ❑ bank sistemində yeni məhsulların yaradılmasına imkan yaradır;
- ❑ yerli bankların maliyyələşmə fəaliyyətlərində kommersiya risklərin və ixrac olunan ölkənin siyasi risklərin sığortalanmasını təmin etməsinə imkan açır.

## Ədəbiyyat siyahısı

1. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İxrac İcmalı. Bakı: 2017, №2.
2. http://transparency.az/cnews. - “Azərbaycan Şəffaflıq Tərəfdaşlığı” layihəsi.
3. Овчинников А.А. (2011). Кредитные агентства в международной торговле. “Экономический журнал” Журнал Российского Государственного Гуманитарного Университета М. №24. ( Beynəlxalq ticarətdə kredit agentlikləri).

4. Сударикова И.А. (2014). Международное страхование. Саратов: ССЭИ РЭУ им. Г.В.Плеханова, 160 с. (*Beynəlxalq sığorta. Saratov: Saratovun sosial-iqtisadi institutu*).
5. Ковалев М.М., Румас С.Н. (2016). Банки развития: новая роль в XXI веке, Минск: "Издательский центр БГУ", 151 с. (*İnkişaf bankları: XXI əsrdə yeni rol, Minsk, Nəşr mərkəzi, BDU*).
6. Йескомб Э.Р. (2008). Принципы проэктного финансирования, М.: Вершина, 488 с. (*Layihə maliyyələşdirmənin prinsipləri, Moskva, Verşina*).
7. Arrangement on officially supported export credits, OECD. (2017) (*İxrac kreditlərin dəstəklənməsi üzrə rəsmi razılaşma, İƏİT*).
8. http://president.az/ - Azərbaycan Respublikası Prezidentinn rəsmi internet səhifəsi.
9. http://www.economy.gov.az - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi.
10. http://export.az/ - Azərbaycanda istehsal edilən məhsul və xidmətlərin İxrac Portalı
11. https://www.gov.uk/ - Böyük Britaniyanın İxrac Maliyyə Agentliyinin rəsmi internet səhifəsi.
12. http://www.exim.gov/ - ABŞ-ın İdxal-İxrac Bankının rəsmi internet səhifəsi.
13. http://www.exiar.ru/ - İxrac kreditin və investisiyanın sığortalanması üzrə Rusiya Agentliyinin rəsmi internet səhifəsi.

**Фаталиева Егана Наил гызы**
диссертант, Научно-исследовательский Институт Экономических Реформ
Министерства Экономики Азербайджанской Республики

## Аннотация

## Необходимость Экспортных Кредитных Агентств

*Цель исследования* – обоснование важности в современное время «Экспортных Кредитных Агентств» (ЭКА) в стимулировании экспорта и необходимости расширения их активизации в Азербайджанской Республики.

*Методология исследования* – системный подход, сравнительный анализ.

*Результаты исследования* – предоставление предложений по обоснованию необходимости ЭКА в Азербайджане, определению направлений, отражающих их положительные черты и особенности.

*Ограничения исследования* – в процессе исследования были трудности в получение соответствующей информации и статистических и математических методов для достижения экономических показателей..

*Практическая значимость исследования* – эффективное рациональное использование мирового опыта в процессах применения ЭКА и использование материалов исследования в качестве научного источника.

*Оригинальность и научная новизна исследования* – с точки зрения новых глобальных вызовов, обоснование необходимости расширения действие ЭКА в национальной экономике, особенно в не нефтяном секторе.

**Ключевые слова:** *Экспортное Кредитное Агентство (ЭКА), ненефтяной сектор.*

**Fataliyeva Yegana Nail kizi**
PhD student, Research Institute of Economic Reforms under
Ministry of Economy of the Republic of Azerbaijan

## Abstract

## Necessity of Export Credit Agency

*Purpose* – to explore the significance of Export Credit Agencies (ECAs) in the stimulation of the export and the necessity of the expansion of their activities in the Republic of Azerbiajan in modern world.

*Design/methodology* – systemic approach and comparative analysis.

*Findings* – to stydy the necessity of ECAs in Azerbaijan, define the directions demonstrating aspects of ECAs and give proposals.

*Research limitations* – it was difficulties to gain the relative information and economic factors by statistic-mathematic method in the process of research.

*Practical implications* – to apply more effectivly international experience in the research process of ECAs and use it as a scientific source in the field.

*Originality/value* – to identify the necessity of the expansion of ECAs activities in the stimulation of the export in the national economy, specially in non-oil sector in the terms of new global challenges.

**Keywords:** *Export Credit Agency (ECA), non-oil sector.*

**JEL Classification Codes:** H21, G24

Məqalə redaksiyaya daxil olmuşdur: 07.07.17.
Təkrar işləməyə göndərilmişdir: 14.07.17.
Çapa qəbul olunmuşdur: 29.09.17.